# Molla Nəsrəddin

SATİRİK JURNAL

ON CİLDDƏ

VII CİLD



Məmmədquluzadə Cəlil Hüseynqulu oğlu ( 1869–1932 ).
Yazıçı, dramaturq, jurnalist, ictimai xadim.
Böyük ədib "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri olmuşdur.



Azərbaycan Milli Elmlər Akademiyası
Nizami adına Ədəbiyyat İnstitutu

# Molla Nəsrəddin

satirik jurnal

ON CİLDDƏ (1906–1931)

## VII CİLD

(1925–1926)

Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB
BAKI 2018

## FÜZULİ XATİRƏSİNƏ
*(Beşləmə)*

*Ədəbi fəaliyyətinin (400) illiyi üçün*

Şeyx, şərh eylərsə də cənnətdə qılman olduğın
Məncə bilmişdir, bunun: yersiz bir ünvan olduğun
Qorxusundan etiraf etməz peşiman olduğun
«Nola zahid bilsə küfri —rülfüniman olduğun
Şimdi görmüşlərmidir kafir müsəlman olduğun?»

❦ ❦ ❦

Binəva ğafil uyub övhamə düşmüş ğəflətə
Sərf edir ömrün riyakaranə bir vəziyyətə
Məndən öyrənsin təriqi — küfri, çatsın rahətə
«Mən əgər kafir olub din verməyəydim ğarətə
Kim bilirdi eşq mülkün kafiristan olduğun?!»

❦ ❦ ❦

Laübalı bir şeyəm, azadə, şeyda, sərsəri
Eşq dastanilə rüsva, ürfü adətdən bəri
Ruh, sərməsti cünundur, həm könül qan sağəri
«Qıl səvab ey göz töküb qan vaqif et aləmləri
Meyl edənlər eşqə bilsinlər ciyər qan olduğun».

❦ ❦ ❦

Bir çocuqtək əylənir, zövq eylərəm məsrur, şən
Dilbəri «amal»ımın baziçeyi — eşqilə mən
Gah qalır eşqində sabit, gah olur peyman şikən
«Eşqini asan bilib oldum əsir tifl ikən
Bilmədim getdikcə bir aşubi — dövran olduğun».

❦ ❦ ❦

Əqli dinlərsəm, deyir: sövdaya pabənd olma bəs!
Çünki, canan vəslinə hər aşiq olmaz dəstrəs
Şahrahi eşqin hər səmtində var min xarü xəs
«Ey, Füzuli xublar vəslinə edərsən həvəs
Guiya bilməzmisən vəsl içrə hicran olduğun?».

❦ ❦ ❦